«Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.17-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. «**Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların siyahısı**» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***A.Rasi-zadə***

***Azərbaycan Respublikasının Baş naziri.***

***Bakı şəhəri, 25 iyun 2010-cu il.***

***№ 119***

---

Qərarının icrası ilə bağlı

**ƏMR EDİRƏM**

1. Təhsil Nazirliyinin aidiyyəti şöbələri, təhsili müəssisələrinin rəhbərləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin «**Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların siyahısı**» haqqında qərarı icra və rəhbərlik üçün əsas tutsunlar.

2. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin «Azərbaycan müəllimi» qəzetində, nazirliyin «Təhsil xəbərləri» məcmuəsində dərc olunmasını və nazirliyin İnternet səhifəsində yerləşdirilməsini təmin etsin.

3. Təhsil Nazirliyinin Ümumi şöbəsi (A.Nəbiyev) əmrin çoxaldılmasını və nazirliyin aidiyyəti şöbələrinə, ali təhsil müəssisələrinə, Bakı şəhəri üzrə təhsil idarəsinə, şəhər və rayon təhsil şöbələrinə, Təhsil Nazirliyinin tabeliyində olan məktəblər, litsey və gimnaziyalara çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

ƏSAS: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.06.2010-cu il tarixli 119 saylı qərarı

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının***

***təhsil naziri***

***09 iyul 2010-cu il***

***№ 1084***